*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

11 mart 2022-ci il
№10 (8968)

www.muallim.edu.az
muallim@edu.gov.az



# “Əziz Şuşa, biz səni dirçəldəcəyik!”

## Şuşanın zəngin ənənələrə malik təhsil tarixindən

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2022-ci ilin ölkəmizdə “Şuşa İli” elan olunması mədəniyyətimizin beşiyi, təhsil tariximizdə müstəsna rolu olan Şuşa şəhərinin azərbaycanlıların milli-mənəvi, psixoloji düşüncəsində özünə əbədi yer tutan dəyərlərin təntənəsidir. Xalqımıza qürur yaşatmış 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Zəfər salnaməmizdə 2020-ci ilin 8 noyabr günü - Şuşanın azadlığa qovuşması milli özünüdərkin, şərəf və xoşbəxtliyin möhtəşəm zirvəsi oldu.

Prezident İlham Əliyevin 2020-ci il noyabrın 8-də səsləndirdiyi “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” sözləri ilə qədim yurd yerinin dirçəldilməsinə, yenidənqurma-bərpa işlərinə başlanmasına start verildi. Ölkə başçısının diqqət və qayğısı sayəsində qədim şəhərimiz olan Şuşanın təhsil ocaqlarında təhsilin dirçəldilməsi istiqamətində məqsədyönlü tədbirlərə başlanıldı. Prezident 960 şagird yerlik Şuşa şəhər 1 nömrəli tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə 8 may 2021-ci il tarixli sərəncam imzaladı. Noyabrın 12-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla Əliyeva və Arzu Əliyevanın iştirakı ilə 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu.

➪Ardı səh.2

## BU SAYIMIZDA

### Gənclər üçün stimul



Ali təhsil müəssisələrindən 9, peşə təhsili müəssisələrindən isə 18 tələbə “AzerGold” təqaüdünün qalibi olub. Proqram çərçivəsində tələbələrin sosial müdafiəsinə dəstək məqsədi ilə 27 qalibin hər biri üçün 9 ay müddətində ümumilikdə 1800 AZN məbləğində təqaüdün verilməsinə artıq başlanılıb. Proqramda iştirak etmiş tələbələrin gələcəkdə müvafiq vəzifələr üzrə işlə təmin edilməsi də nəzərdə tutulur.

➪səh.3

### Təhsil torpaqdan başlayır



Təhsil Nazirliyinin dəstəyi və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 8 mart 2022-ci il tarixində yayımlanan bölümündə tanınmış yazıçı, psixoloq, Türkiyə və İtaliyada bestseller müəllifi Azra Kohen ilə davamlı inkişaf, özünükəşf, həyat keyfiyyəti barədə danışılıb. Proqram Təhsil Nazirliyinin “Facebook” səhifəsi üzərindən canlı yayımlanıb.

➪səh.4

### Uşaqlara sevgi ilə



Qeyd etməliyik ki, Uşaq Bərpa Mərkəzi heç də standart müalicə mərkəzlərinə bənzəmir. Belə ki, dəhlizlərdə, otaqlarda müxtəlif növ təbii çiçəklər, güllər insanın gözünü oxşayır. Maraqlı, inkişafetdirici oyuncaqlar təlim və məşğələlər zamanı uşaqların ixtiyarına verilir. Eyni zamanda otaqlarda uşaqların çəkdikləri rəsmlər marağa səbəb olur.

➪səh.7




## Partlayış təhlükəsindən necə qorunmalı?

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, qətiyyətli iradəsi və ordumuzun rəşadəti nəticəsində xalqımızın ən böyük arzusunun gerçəkləşməsi, ərazi bütövlüyümüzün bərpa edilməsi dövlətçiliyimizin ən şərəfli səhifəsidir. Bu tarixi Zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın tarixi torpaqlarımızın 30 illik işğalına son qoymaqla yanaşı, dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü təsdiqlədi.

Təbii ki, əbədi və əzəli torpaqlarımıza qovuşan hər bir vətəndaşımız səbirsizliklə həmin əraziləri ziyarət etmək istəyir. Lakin mənfur düşmənin törətdiyi əməllərin fəsadları qalmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarımıza xüsusi icazə olmadan gedən mülki vətəndaşlar, o cümlədən gənclər arasında minaya düşərək həlak olan və ya yaralananlara, təəssüf ki, rast gəlinir.

Bu baxımdan, Azərbaycan Respublikasının təhsil naziri “Təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələr”in təsdiq edilməsi barədə 2021-ci il 20 avqust tarixində müvafiq əmr imzalayıb.

➪Ardı səh.8

"Şuşa İli"

# "Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

"Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır".

*Prezident İlham Əliyevin 2022-ci ilin Azərbaycan Respublikasında "Şuşa İli" elan edilməsi haqqında Sərəncamından*


Realnı Məktəb işğaldan əvvəl


Realnı Məktəb işğaldan sonra

## Şuşanın zəngin ənənələrə malik təhsil tarixindən

⇦ Əvvəli səh.1

Qəbul olunan qərarlar, həyata keçirilməkdə olan genişmiqyaslı tədbirlər ölkənin təhsil ictimaiyyəti, eləcə də Şuşanın təhsil işçiləri tərəfindən böyük sevinclə qarşılanan anlara çevrildi.

Qeyd edək ki, Təhsil Nazirliyinin dəstəyi ilə Bakıda, eləcə də digər şəhər və rayonlarda fəaliyyətini davam etdirən Şuşa məktəblərinin təhsil işçilərinin, tanınmış pedaqoqların iştirakı ilə Azərbaycanın 190 illik tarixi olan ilk dövlət məktəbi - Şuşa qəza məktəbinin nümunəsində "Şuşa dərsləri" təşkil olundu. "Qarabağın məşhur müəllimləri" layihəsi ilə Şuşa məktəblərinin tanınmış məzunlarının irsinə işıq salındı.

Məlumdur ki, ötən yüzilliklərdən üzü bəri Azərbaycanın maarifçilik tarixində, xüsusilə görkəmli ziyalıların yetişməsində bir ədəbi mühit kimi Şuşanın böyük rolu olub. 1830-cu il dekabrın 30-da Şuşada 19 şagirdlə açılan qəza məktəbi ilə Azərbaycanda dövlət təhsil sisteminin, Avropa tipli dünyəvi təhsilin əsası qoyulub. Bu məktəb Şuşanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında, Şuşa əhalisinin maariflənməsində mühüm rola malik olub. Şagirdlərin sayına görə məktəb nəinki bütün Zaqafqaziyada və Qafqazda, hətta Rusiyada birinci yeri tuturdu. Qəza məktəbləri yerləşdikləri ərazidə yeganə təhsil müəssisəsi olmaqdan əlavə, həm də mədəniyyət mərkəzi kimi fəaliyyət göstərirdi. Şuşa məktəbi bu sahədə geniş mədəni-maarif işi aparırdı. Şəhərdə musiqiyə, ədəbiyyata maraq göstərilməsi məktəbdə müxtəlif mədəni tədbirlərin keçirilməsinə kömək edirdi. Eyni zamanda, bu məktəb Azərbaycanın o dövrkü inkişafı üçün fəaliyyət göstərən şəxslərin yetişməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Onların arasında məşhur müəllim Əliş bəy Tahirov, Azərbaycanın elmi-pedaqoji fikir tarixində görkəmli ədəbiyyatşünas, pedaqoq kimi yer tutan Firudin bəy Köçərli, tanınmış pedaqoq Səfərəli bəy Vəlibəyov da var idi. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov və görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli həmin məktəbin məzunlarından olublar. Xalq artisti, Əməkdar incəsənət xadimi, professor Süleyman Ələsgərov ilk həyat hazırlığını məhz Şuşa 7 illik nümunə məktəbində oxuyarkən alıb. Qarabağın məşhur müəllimləri arasında Şuşada öz vəsaiti hesabına məktəb açdıran və müəllimlik edən, azərbaycanlı balalar üçün kitab yazan Mirzə Salah bəy Zöhrabbəyov, Şuşa realnı məktəbin məzunu, ictimai-siyasi xadim Qara bəy Əliverdilər, Şuşada yerləşən müsəlman-rus məktəbinin müdiri işləmiş, Şuşa Realnı məktəbinin hazırlıq sinfində ana dilindən dərs demiş Haşım bəy Vəzirov də vardır.

Məzunları Azərbaycan maarifinin, məktəb və mədəniyyətinin inkişafında mühüm və böyük rol oynamış Şuşa qəza məktəbi 1874-cü ilə qədər öz fəaliyyətini davam etdirmiş, yerini Şuşa şəhər məktəbinə vermişdir. Şuşa şəhər məktəbi nəinki Qarabağda, eyni zamanda, bütün Azərbaycanda təhsilin, xalq maarifinin, həmçinin müxtəlif sənətlərin inkişafında böyük rol oynamışdır. Azərbaycanda ilk orta təhsil verən müəssisələrdən biri olan Şuşa Realnı Məktəbi Şuşa əhalisinin tələbi və xahişi ilə 1881-ci il sentyabrın 20-də fəaliyyətə başlamışdır. Qarabağlı gənclər Şuşa Realnı Məktəbdə təhsil almaları sayəsində Rusiyanın və Avropanın ali məktəblərinə daxil olmuş və oranı bitirdikdən sonra xalq maarifi və məktəb, elm və mədəniyyət, xalq təsərrüfatı və iqtisadiyyatın, sənayenin müxtəlif sahələrində xidmətlər göstərmişlər.

1992-ci ilin 8 may tarixində ermənilər tərəfindən işğalından sonra Şuşanın məktəbləri respublikanın müxtəlif rayonlarında müvəqqəti məskunlaşıblar. Hazırda Şuşa rayonunun ölkə üzrə 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul olur.

Dövlət tərəfindən Şuşa təhsilinə həmişə böyük diqqət yetirilib. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə 1982-ci il yanvar ayının 12-də Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyi təntənəli şəkildə keçirilib. 2010-cu ildə ölkə Prezidentinin sərəncamı ilə Cənubi Qafqazda birinci dünyəvi məktəb olan Şuşa şəhər 1 nömrəli orta məktəbin 180 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

İşğaldan azad olunmuş torpaqlarda aparılan işlərin miqyası onu deməyə əsas verir ki, tezliklə Şuşada müasir təhsil infrastrukturu yaradılacaq, bir vaxtlar ölkəmizdə xüsusil ənənələri ilə seçilən orta ümumtəhsil məktəbləri, kolleclər, ali təhsil müəssisələri öz fəaliyyətlərini bərpa edəcəklər. Şuşa məktəbləri öz qapılarını tezliklə müəllim və şagirdlərin üzünə açacaq və Şuşa məktəbinin şöhrətli təhsil mühitini, təhsil ənənələrini bərpa edib yenidən yaşadacaqlar. Şuşa məktəbləri, Şuşa müəllimləri tezliklə doğma torpaqlarımıza qayıdış ruhu ilə yaşayır.

Ölkə başçısı tərəfindən elan edilən "Şuşa İli"-nə töhfə olaraq "Azərbaycan müəllimi" qəzeti də öz saylarında bu qədim şəhərin təhsil ənənələri, təhsil mühiti, orta məktəblərinə və məşhur məzunlarına həsr olunmuş silsilə yazıları ilə oxucularla görüşəcək.

**Oruc MUSTAFAYEV**

**1830-cu il dekabrın 30-da Şuşada 19 şagirdlə açılan qəza məktəbi ilə Azərbaycanda dövlət təhsil sisteminin, Avropa tipli dünyəvi təhsilin əsası qoyulub.**

**Azərbaycanda ilk orta təhsil verən müəssisələrdən biri olan Şuşa Realnı Məktəbi Şuşa əhalisinin tələbi və xahişi ilə 1881-ci il sentyabrın 20-də fəaliyyətə başlamışdır.**

**Hazırda Şuşa rayonunun ölkə üzrə 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul olur.**

**Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə 1982-ci il yanvar ayının 12-də Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyi təntənəli şəkildə keçirilib.**

**2010-cu ildə ölkə Prezidentinin sərəncamı ilə Cənubi Qafqazda birinci dünyəvi məktəb olan Şuşa şəhər 1 nömrəli orta məktəbin 180 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.**

# "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 398-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 noyabr tarixli 1480 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 9 mart 2022-ci il*

# Təhsil naziri Gəncədə vətəndaşları qəbul edəcək

Təhsil naziri Emin Əmrullayev martın 12-də Gəncə şəhərində Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl, Samux və Kəlbəcər rayonlarında qeydiyyatda olan sakinləri qəbul edəcək. Qəbulda Gəncə şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan şəhər və rayonların sakinləri 4 mart 2022-ci il tarixinədək (saat 18:00-dək) Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, Nazirliyin saytının əlaqə bölməsi vasitəsilə elektron *(https://edu.gov.az/az/contact)* və rəsmi "Whatsapp" xidmətinə (0512067848) müraciət etməklə qəbula yazıla bilərlər.

# Təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub

Martın 9-da təhsil naziri Emin Əmrullayev Qırğız Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev ilə görüşüb.

Görüşdə iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

***

Martın 9-da təhsil naziri Emin Əmrullayev İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə də görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və mümkün əməkdaşlıq perspektivləri müzakirə mövzusu olub.

# Gənclər üçün stimul




## Peşə və ali təhsil müəssisələri üçün elan edilmiş təqaüd proqramlarının qalibləri mükafatlandırılıb

Martın 10-da "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) peşə və ali təhsil müəssisələri üçün elan etdiyi təqaüd proqramı müsabiqələrinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə təhsil naziri Emin Əmrullayev, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin (PTDA) direktor müavini, direktor vəzifəsini icra edən Ceyhun Kərəmov, eləcə də ali təhsil müəssisələrinin rektorları və müsabiqə qalibləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov "AzerGold" təqaüdünü qazanmış tələbələri təbrik edib, onlara təhsil və karyera həyatında uğurlar arzu edib. İdarə Heyətinin sədri təqaüd proqramları haqqında ətraflı bəhs edərək, layihənin Cəmiyyətin orta və uzunmüddətli strategiyası çərçivəsində müəyyən edilmiş kadr ehtiyacları üzrə resursların zamanında cəlb olunması planı çərçivəsində ötən ilin sonlarından etibarən həyata keçirildiyini qeyd edib. Bildirilib ki, sənaye və dağ-mədən istiqaməti üzrə təhsil alan tələbələri əhatə edən layihənin əsas məqsədi təhsilə marağın daha da artırılması, istedadlı tələbələrin potensial bilik və bacarıqlarının real iş yerlərində aşkar edilməsidir.

Zakir İbrahimov həmçinin Səhmdar Cəmiyyətin Azərbaycanda fəaliyyət göstərən bir sıra ali və peşə təhsili müəssisələrinə kadr hazırlığı sahəsində gördüyü işlərdən bəhs edib. Sədr mütəxəssislərin ixtisas biliklərinin artırılması, təhsil, elm, istehsalat və birgə təhsil proqramları sahəsində qarşılıqlı maraq doğuran əməkdaşlığın yaradılması məqsədilə 8 yerli təhsil müəssisəsi ilə əməkdaşlıq memorandumu və protokolu çərçivəsində işlər görüldüyünü bildirib. 2017-ci ildə ilk olaraq Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti ilə memorandum imzalanıb. 2018-ci ildə Azərbaycan Diplomatik Akademiyası, 2019-cu ildən Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Texnologiya Universiteti və Bakı Dövlət Universiteti ilə əməkdaşlığa start verilib. Ötən ildən isə Azərbaycan Texniki Universiteti və Bakı Ali Neft Məktəbi ilə əməkdaşlığa başlanılıb.

İdarə Heyətinin sədri bildirib ki, ali məktəblərlə əldə olunmuş razılaşmalara uyğun olaraq, müvafiq peşə-ixtisas sahəsi üzrə təhsil alan tələbələrin Cəmiyyətin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə mütəmadi səfərləri təşkil olunur. Beləliklə, ali məktəblərdə elmi-nəzəri biliklərə yiyələnən tələbələr əyani surətdə istehsalat təcrübəsinə də yiyələnmiş olurlar. Bununla yanaşı, Səhmdar Cəmiyyətin mütəxəssisləri tələbələrə mühazirələr oxuyur, ustad dərsləri, eləcə də müxtəlif müsabiqələr, stimullaşdırıcı tədbirlər həyata keçirirlər. Elan edilmiş müvafiq vakansiyalara uyğun işçilərin cəlb edilməsində təcrübə proqramlarında iştirak etmiş məzunlara üstünlük verilir.




Təhsil naziri Emin Əmrullayev peşə sahəsində "AzerGold" QSC ilə mövcud əməkdaşlığın əhəmiyyətinə toxunub. Nazir bildirib ki, təqaüd proqramının tətbiqi gənclər üçün stimul kimi qiymətləndirilə bilər. Nazir həmçinin işəgötürənlərin peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılmasının zəruriliyindən danışıb.

Emin Əmrullayev çıxışının sonunda təqaüd proqramını qazanmış tələbələri təbrik edib və onlara uğurlar arzulayıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini, direktor vəzifəsini icra edən Ceyhun Kərəmov da öz növbəsində "AzerGold" QSC ilə PTDA arasında mövcud əməkdaşlıqdan danışıb. Ceyhun Kərəmov deyib ki, 2021-ci ildə imzalanmış əməkdaşlığa dair fəaliyyət planına uyğun olaraq həyata keçirilən təqaüd proqramına Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzindən ümumilikdə 56 tələbə müraciət edib. Ceyhun Kərəmov əlavə edib ki, "AzerGold" QSC-nin əməkdaşları bir neçə peşə təhsil müəssisəsinin müəllim heyəti üçün ixtisasartırma təlimləri keçirib və onların şirkətin istehsalat sahələrinə səfəri təşkil edilib. Cari ildə əməkdaşlıq çərçivəsində yeni təhsil proqramlarının və tədris resurslarının hazırlanması, maddi-texniki bazanın müasirləşdirilməsi nəzərdə tutulub.

Tədbirdə qeyd edilib ki, ali təhsil müəssisələrindən 9, peşə təhsili müəssisələrindən isə 18 tələbə "AzerGold" təqaüdünün qalibi olub. Proqram çərçivəsində tələbələrin sosial müdafiəsinə dəstək məqsədi ilə 27 qalibin hər biri üçün 9 ay müddətində ümumilikdə 1800 AZN məbləğində təqaüdün verilməsinə artıq başlanılıb. Proqramda iştirak etmiş tələbələrin gələcəkdə müvafiq vəzifələr üzrə işlə təmin edilməsi də nəzərdə tutulur.

Daha sonra təqaüd proqramını qazanmış tələbələrin təmsil olunduğu universitetlər — Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Dövlət Universitetinin rektorları çıxış edərək "AzerGold" arasında imzalanmış anlaşma memorandumu çərçivəsində görüləcək işlər və ali təhsil müəssisələri üçün elan edilmiş təqaüd proqramının əhəmiyyəti barədə çıxışlar ediblər.

Sonda təqaüd proqramını qazanmış tələbələrə sertifikat və xatirə hədiyyələri təqdim olunub.

# Şagirdlər üçün partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə tədbiri



Martın 4-də Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) birgə təşkilatçılığı ilə Partlayıcı Sursatların Təhlükəsinə dair Maarifləndirmə (PSTM) tədbiri keçirilib.

Laçın rayonu 21 nömrəli tam orta məktəbdə baş tutan tədbirin məqsədi işğaldan azad edilmiş rayonlara köçürüləcək şagirdlərin mina və partlayıcı sursatların təhlükəsi barədə biliklərinin artırılması olub.

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Yeni Azərbaycan Partiyasının sədr müavini Tahir Budaqov, UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens, Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev və digər qonaqlar iştirak edib.

Tədbir çərçivəsində ANAMA-nın fəaliyyətinə dair sosial çarx və təhlükəli ərazilərin əlamətləri, mina xəbərdaredici işarələrin tanınmasını əks etdirən animasiya nümayiş olunub. Həmçinin məktəb şagirdləri tərəfindən partlayıcı sursatların təhlükəsi barədə maarifləndirici səhnəcik təqdim edilib.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələrin hazırlandığını qeyd edib. Nazir bildirib ki, metodiki tövsiyələrə uyğun olaraq məktəblərdə mütəmadi şəkildə mina təhlükəsi, onun fəsadları barədə şagirdlərlə maarifləndirici tədbirlər həyata keçirilir və bu tədbirlərin baş verə biləcək təhlükələrin qarşısının alınması baxımından əhəmiyyəti böyükdür.

Nazir, həmçinin qeyd edib ki, cari tədris ilində də əvvəlki illərdəki kimi Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı və Zəngilan rayonlarının bütün ümumi təhsil müəssisələrinin, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumi təhsil müəssisələrinin VI siniflərində dərsdənkənar məşğələlərə ayrılmış vaxt hesabına həftədə bir saat olmaqla ikinci yarımildə "Mina təhlükəsinə dair maariflənmə" adlı kursun tədrisi aparılır.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov "Mina Təhlükəsi ilə Mübarizə" proqramının əsas komponentlərindən biri olan "Partlayıcı Sursatların Təhlükəsinə dair Maarifləndirmə" proqramının (PSTM) fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirib ki, ANAMA tərəfindən fəaliyyət çərçivəsində ümumi maarifləndirmə, təlimçilərin təlimi, icma PSTM və məktəblərdə maarifləndirmə tədbirləri həyata keçirilir.

Həmçinin qeyd edilib ki, məktəblərdə PSTM fəaliyyətinin əsas məqsədi müharibədən zərərçəkmiş icmalarda məktəblilərin, eləcə də valideynlərin mina və partlamamış hərbi sursatlara dair biliklərinin artırılmasının təmin edilməsindən ibarətdir.

ANAMA-nın sədri tədbirdə iştirak edən şagirdlərə müraciət edərək mina riskindən qorunmaq üçün şübhəli ərazilərə daxil olmamağın, müharibənin partlayıcı qalıqlarına toxunmamağın və baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədilə naməlum əşyalara rast gəldikdə 102 və 112 "Qaynar xətt" nömrələrinə məlumat verilməsinin vacibliyini bildirib.

Tədbirdə müxtəlif növ mina və partlamamış hərbi sursatların vizual tanınması məqsədilə maketlərdən ibarət nümayiş guşəsi də təşkil edilib.



# Təhsil torpaqdan başlayır

## “Yeni çağırışlar”da növbəti qonaq tanınmış yazıçı Azra Kohen olub

**“Yeni çağırışlar” onlayn müzakirə proqramının növbəti qonağı tanınmış yazıçı, psixoloq, Türkiyə və İtaliyada bestseller müəllifi Azra Kohen bir sıra çağırışlar səsləndirib. Belə ki, Təhsil Nazirliyinin dəstəyi və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 8 mart 2022-ci il tarixində yayımlanan bölümündə Azra Kohen ilə davamlı inkişaf, özünükəşf, həyat keyfiyyəti barədə danışılıb. “T-Network”un koordinatoru, təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında proqram Təhsil Nazirliyinin “Facebook” səhifəsi üzərindən canlı yayımlanıb.**




### Çətinliklər hədiyyədir

Proqramın 8 mart Beynəlxalq Qadınlar Gününə təsadüf etdiyi üçün girişdə Şövkət Ələkbərovanın ifasında sözləri Nəbi Xəzriyə, musiqisi isə Emin Sabitoğluna aid olan “Ağ çiçəyim” mahnısı səsləndirilib. Azra Kohenin “Təhsil torpaqdan başlar” düşüncəsindən ilhamlanaraq davamlı öyrənməyə işarə edən çiçəklərdən ibarət sonsuzluq işarəsi fonunda qonağı salamlayan Cəfər Mənsimi türkiyəli həmsöhbətini, eləcə də bütün qadınları bayram münasibətilə təbrik edib. Görüşün aparıcısı qonağı izləyicilərə yaxından təqdim edərək bildirib ki, psixoloq, bestseller müəllifi Azra Kohenin müəllifi olduğu “Fi”, “Çi”, “Pi”, “Məni gör”, “Aiden” kitabları Türkiyə və İtaliyada satış rekordları qırıb. Azra Kohenin “Fi” kitabına film də çəkilib.

Aparıcının “İlk “Fi” kitabınızı şəxsi potensialını kəşfetmə cəsarəti göstərən insanlara, çatlama cəsarəti göstərmiş toxumlara həsr etmisiniz. Bəs siz nə zaman və necə özünüzü kəşfetmə cəsarəti göstərdiniz” ilk sualına cavab verən qonaq hələ potensialını kəşf etdiyini və həyata keçirdiyini düşünmədiyini, bu məqamın davamlı proses olduğunu söyləyib. O, həyatda insanın qarşılaşdığı çətinliklərin hədiyyə olduğunu vurğulayaraq bildirib ki, bu zaman potensialın gerçəkləşdirilməsi, zənginləşdirilməsi üçün fürsət yaranır və insanlar bundan yararlanmalı, yeni bilgi toplamalıdırlar: “Təkcə yaşadıqlarınızı fərq etmək deyil, strategiya işlədib şəxsi həyatınızı nəzarət altına almağınız, qərar verməyiniz lazımdır. Qərar vermə ən çətin mərhələdir. Yola çıxma mərhələsi qərar verməndən daha asandır, çünki qərar verilmiş bir yol daha axıcı şəkildə irəliləyir. Lakin siz ətrafınızda mövcud olan hər şeyin sizə nə isə öyrətmək üçün var olduğunu dərk etmədən yola çıxa bilməzsiniz. Çünki belə olan halda ətrafınızda baş verən böhranları ciddiyə almayacaqsınız. Nələr yaşasanız da bilməlisiniz ki, həyat sizi sevir və sizə bir şey öyrətmək üçün bunları yaşadır”. Azra Kohen həyatında hər şeyi və hər kəsi ciddiyə aldığını, onu incitmək istəyən insanlardan belə nə isə öyrəndiyini, ətrafındakıları düşmən deyil, bilgi daşıyıcıları olaraq gördüyünü qeyd edib.

### Zehin zənginliyini hədəfləyin

İnsanın maraq hissini kiçik bilgilərdən ibarət orduya bənzədən qonaq orduda olduğu kimi, maraq hissinin də nizam-intizamlı olmasının vacibliyindən danışıb. Azra xanım bildirib ki, maraq insanı özünü gerçəkləşdirəcəyi, ən başda kəşf etdiyi bir səyahətə çıxardır. Buna görə də insan özünün gerçəkləşdirilməsi üçün marağını “əhliləşdirməli”, ona aid olmayan faydasız mövzulardan uzaq tutmalı, onsuz da qısa olan zamanını ancaq faydalı olan bilgiləri öyrənməyə xərcləməlidir. “Özünə qarşı dürüst olmayan insan ətrafındakılara da dürüst ola bilməz” - psixoloq söyləyib.

Azra Kohenin fikrincə, hər kəs şəxsi yol xəritəsini inkişaf etdirməlidir. “Fi”, “Çi”, “Pi” kitablarında yer alan “Tibet hekayələrində” şəxsi yol xəritəsini düzgün dizayn etməklə bağlı ip ucları verdiyini deyən yazıçı insanlara həyatlarındakı, ətraflarındakı şəxsləri, doğru bilgilər əldə edə biləcəkləri adresləri düzgün seçməyi tövsiyə edib: “Zehin zənginliyi maddi zənginliyə də gətirir. Öncə zehin zənginliyini hədəfləyin”.

### Torpağı öyrən

C.Mənsiminin “Təhsilin torpaqdan başladığını vurğulayırsınız. Nə üçün təhsil torpaqdan başlayır? Torpaqla əlaqə qurmaq nədən bu qədər önəmlidir?” sualına cavabında Azra Kohen qeyd edib ki, insan nə isə yetişdirməyə hazırlaşdıqda torpaq haqqında bilgilər toplamağa başlayır. Bitkinin nə olduğunu anladıqda torpaq haqqında da məlumat əldə etmiş oluruq. Bitkilərin fotosintez prosesi həyata keçirərək ən inkişaf etmiş orqanizm olduğunu söyləyən psixoloq bu zaman onların heç bir canlının enerjisini almadığını, əksinə, havadakı qazları toplayıb oksigenə çevirməsinə, digər canlılara həyat verməsinə diqqət çəkib. Eyni zamanda digər canlıların isə həyatda qalmaq üçün bitkilərlə, digər canlılarla qidalanmasını misal göstərərək bu baxımdan torpaq haqqında bilginin çox zəngin olduğunu söyləyib. Azra xanım gerçək həyatla tanış olmaq istəyənləri torpağı öyrənməyə çağırıb.

### Uşaqlara nə öyrətməliyik?

Sənaye inqilabına görə formalaşdırılan təhsil sistemi bu gün müasir çağırışlara uyğun özünü yeniləməli, dizayn etməlidir. Finlandiya təhsilinin yüksək olduğunu vurğulayan qonaq dəfələrlə həmin ölkənin məktəblərini gəzdiyini, təhsil sistemini yaxından öyrəndikdən sonra bu qənaətə gəldiyini bildirib. Yeni, siyasətdən uzaq, ödənişsiz məktəb qurmağı planlaşdırdığını diqqətə çatdıran Azra Kohen kurikulumun təhsil işçiləri deyil, bacarığı ilə dünyanı dəyişdirə bilmiş şəxslər tərəfindən hazırlanması arzusunda olduğunu deyib: “Burada həyatla praktik əlaqəsi olan şəxslər yer almalıdırlar. Məsələn, fermer, həkim, elm adamı”.

Yazıçının fikrincə, ibtidai təhsil Nyutonun nəzəriyyəsindən Kvantın vahid baxışına uyğunlaşdırılaraq yenidən dizayn edilməlidir. Psixoloq düşünür ki, ibtidai sinifin birinci sinfində “Qidalanma nədir, nə işə yarayır? Torpaq nədir? Bədən və beyin necə işləyir?” suallarına cavab tapılmalı, elmin tarixi, musiqinin riyaziyyatı və şahmat öyrədilməlidir. İkinci sinifdə isə regenerativ kənd təsərrüfatı, avtotrofiya və heterotrofiya, mikrobiota və biomüxtəliflik, ağılın nə olduğu, insanlığın vahid tarixi, səs və seçilmiş musiqi aləti, üçüncü sinifdə bitkilər və heyvanlar, biologiya, psixologiya, vahid din, sıfır və riyaziyyat, dərin oxu tədris edilməlidir. Həmçinin Azra Kohen hesab edir ki, uşaq sağlam bəslənməli, sevilməli, özünü yaxşı hiss etməlidir ki, onlarda oksitosin hormonu dövrəyə girsin və beyinləri inkişaf etsin: “Bizim əsas vəzifəmiz insan yetişdirməkdir. İnsanın digər canlılardan fərqi zəkasının olmasıdır. Bunun üçün zəkası zəngin varlıq yetişdirmək lazımdır. Təhsilin ilk 3 ilində uşağı sevərək, motivə edərək, maraqlarını oyadacaq dərslər verərək onları çalışqanlığa öyrətməliyik”.

### Əsl dəyərli olan nədir?

Sağlam qidalanma vərdişi məsələsinə xüsusi toxunan psixoloq insan vücudunun ən çox enerji xərclədiyi orqanın beyin olduğuna diqqət çəkib. Azra Kohen bu mövzuda izləyicilərə “Mikrobiota”, “Ölmək və ya ölməmək” kitablarını oxumağı tövsiyə edib, yalnız təbii yolla yetişdirilmiş, orqanik, geni dəyişdirilməmiş meyvə-tərəvəzlər istifadə, antibiotiklərlə bəslənmiş toyuqlardan, ət məhsullarından imtina etməyə çağırıb.

Bu baxımdan, Azra Kohen həyatda əsl dəyərli olan insanlar arasında əkinçilərin, kənd təsərrüfatı ilə məşğul olan şəxslərin, fermerlərin olduğunu diqqətə çəkib. “Fermerlər cəmiyyəti sağlam qida ilə təmin edir, bolluq, bərəkət verirlər. Bir toplumda ən dəyərli olanlar müəllimlər, qadınlar və kənd təsərrüfatı ilə məşğul olanlardır. Dünyada ən yaxşı müəllim yetişdirən ölkələr həm də ən inkişaf etmiş dövlətlərdir”, - xanım qonaq bildirib.

Azra Kohen anaların təhsilli olmasının vacibliyinə də toxunub: “Bir ölkəni yox etmək istəyirsinizsə orada qadın, ana sözlərinin əhəmiyyətini düşürün, qadına ana olduğunu unutdurun. Həmin ölkə təxminən 70 ilə məhv olar. Kişi evin dirəyidir deyilir. Qadın isə evin damıdır, damsız ev olmaz. Bir yuvanın qurulması üçün onun həm dirəyi, həm damının olması gərəkdir”.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi “Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar” sualını cavablandıran yazıçı aşağıdakı çağırışları sadalayıb: “1.Dünyada siyasət anlayışı dəyişməlidir, yalnız 15 il müəllimlik edən şəxslər siyasətçi olmalıdırlar; 2.Tədqiqatçı heyət formalaşmalıdır; 3.Uşaqlar üçün maraqlı mövzular dizayn edilməlidir; 4.Anaların təhsilinə diqqət çəkilməlidir; 5.Vahid baxış tənzimlənməlidir; 6.Təmiz enerji mərkəzə gətirilməlidir; 7.Kənd təsərrüfatına diqqət artırılmalı, istehlakçıdan istehsalçıya keçid təmin edilməlidir; 8.Elə bir qanun çıxmalıdır ki, hər kəs ildə bir ağac əksin, şəhərlərin içində qoruqlar yaradılsın”.

Cəfər Mənsimi Azra Kohenin qəhrəmanlarınızdan birinin digərinə ünvanladığı “Yaradanla görüşsəniz, o, sizə nə deyərdi?” sualını da qonağa verib. Kohen Yaradanın adından danışmaq istəmədiyini, sadəcə “Afərin sənə! Üzərinə düşən vəzifəni gerçəkləşdirdin!” sözlərini eşitsə özünü çox xoşbəxt hiss edərdi cavabını verib. Psixoloq hər kəsi vaxtını düzgün planlaşdırmağa, məqsəd qoyub qərar verməyə, özünü inkişaf etdirməkdən vaz keçməməyə, özünü gerçəkləşdirməyə, irəliləməyə davam etməyə çağırıb.

Sonda “T-Network”-un koordinatoru Cəfər Mənsimi proqramda iştirakına görə Azra Kohenə dərin minnətdarlığını bildirib. Azra Kohen isə, proqramda iştirakından böyük zövq aldığını qeyd edərək əməyi keçənlərə təşəkkürünü çatdırıb.

**Lamiyə ƏLİMƏRDANOVA**

Müzakirəyə dəvət

# Təhsil proqramlarının dil problemi

**İstənilən cəmiyyətin inkişaf səviyyəsi buradakı təhsilin və elmin inkişafı ilə ölçülür. Təbii ki, təhsil və elm universal anlayışlar və geniş sahələr kimi özündə çoxlu alt-anlayışları və alt-sahələri ehtiva edir. Yəni, təhsil həm də çoxaspektli ictimai və sosial münasibətlərin, elm isə texniki tərəqqinin, intellektual cəmiyyətin idraki və mədəni səviyyəsinin indikatorudur.**

**Təhsil cəmiyyətdəki inkişaf mühitini və məqsədləri müəyyən edib onu lazımi istiqamətə aparan əsl lokomotiv, stabil və dayanaqlı inkişafa gedən yoldur. Bu yolda cəmiyyətin qarşısında konkret məqsədlər və çatılası hədəflər durur. İstənilən təhsil pilləsi və səviyyəsi üçün tədris proqramlarının konkret məqsədləri və hədəfləri dövlət və hökumət tərəfindən təsdiq olunmuş qanunvericilik aktları ilə müəyyən edilir.**

**Məqsəd və hədəflər müəyyən olunmaqla yanaşı, onları dəf etməli olan təhsil iştirakçıları amili ortaya çıxır. Öyrədən və öyrənən, təhsil prosesi iştirakçıları kimdir? Təhsildə Himayədarlar və ya Ekspertlər institutları formalaşıbmı? İctimai Şuranın bu sahəyə cavabdeh icra orqanları ilə əməkdaşlıq səviyyəsi hansı meyarlarla ölçülür? Bu institutların ictimai rəyə təsir mexanizmləri varmı? Təhsil idarəçiləri onilliklərlə formalaşmış milli ənənə və praktikanı xarici təcrübədən bəhrələnməklə müasir yanaşma və meyillərə inteqrasiya edə bilirlərmi? Daha doğrusu, bunun tədris-təşkilati, elmi-metodiki əsası, konkret meyar və hədəfləri varmı, varsa da hansı səviyyədə tətbiq edilir?**

## Aktual məsələ barədə qeydlər



**Telman CƏFƏROV,**
*filologiya üzrə elmlər doktoru, professor*

Son zamanlar daha çox xarici təcrübədən, xaricdə təhsildən, beynəlxalq əməkdaşlıq planlarından danışmalı oluruq. Bu, olduqca təbii bir haldır. Bununla belə, son iki onillik ərzində bu istiqamətdə əldə etdiyimiz “qazanc”ın təhsilimizə gətirdiyi dividendlərin ölçülməsi, yerli universitetlərin inkişaf modelləri, onların ölkənin dayanıqlı inkişafına verəcəyi xeyir, təhsil və elmi fəaliyyətlərlə yanaşı, ali təhsil müəssisələrinin (ATM) üçüncü missiyasını formalaşdıran və müasir dövr üçün olduqca vacib sayılan məqsədlərin müəyyən edilməsi mühüm şərtdir. Yerli ATM-lərin dəstəklənməsi, mövcud filialların nəzdində regionlarda yeni universitetlərin yaradılması və ya bəzi paytaxt universitetlərinin regionlara köçürülməsi ilə yanaşı, “Ali təhsil haqqında Qanun”da ATM-lərin üçüncü missiyasının məqsədlərinə xidmət edəcək mexanizmlərin müəyyən olunması mühüm amildir. Bu tədbirlərin altında təkcə mütəxəssis hazırlığı proqramlarının icrasının durmadığını anlamaqla, regionlarda elm və təhsilin, mədəniyyətin, sənayenin, müvafiq infrastrukturların, xidmətlər şəbəkəsinin genişlənməsi, bütün tiplərdən olan təhsil və elm mərkəzlərinin regionlardakı universitetlərin ətrafında birləşməsi imkanları nəzərdən keçirilməsi, bu fəaliyyətlərə məhz xaricdə təhsil almış gənclərin cəlbinə çalışılması məqsədəmüvafiqdir. Gəncləri xaricdə təhsilə göndərməklə yanaşı, əcnəbi mütəxəssislər cəlb olunmaqla daha çox ali məktəbi, tələbə və tədqiqatçını əhatə etməyə üstünlük verilə bilər. Ümumiyyətlə, dövlət ali məktəblərinin büdcədən maliyyələşmə imkanlarına yenidən baxılması, xüsusən də ATM-lərdə dar və strateji ixtisaslarda mütəxəssis hazırlığı proqramları üzrə büdcə yerlərinin artırılması müzakirə oluna bilər.

Son iki ilə yaxın dövr bizi informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəyə vadar etdi. Məsafədən təlim sahəsindəki geriliyin aradan qaldırılmasında ciddi addımlar atıldı. İKT-nin imkanlarından yararlanma səviyyəsi yüksəldi. Tədris müəssisələrimiz tam distant və hibrid tədris formalarında çalışmaqla müxtəlif platformalarda tədris resurslarının idarə və istifadə olunması imkanlarını genişləndirdilər. Hazırda Təhsil Nazirliyinin xətti ilə orta və ali təhsil sistemlərinin effektiv elektron idarə olunması sistemləri mövcuddur ki, bu da yuxarıda vurğuladığımız məsələlərin həlli üçün vacib şərtdir.

Məqalənin giriş hissəsində toxunulan məsələlərin dairəsini genişləndirmək niyyətində deyilik, çünki sistem o qədər geniş, yanaşmalar və seçimlər o qədər fərqlidir ki, burada söylənilən istənilən fikir və verilən resept müzakirə obyekti ola bilər. Əsas hədəfdən və qoyulan problemin həlli ilə bağlı müşahidə və təkliflərdən diqqəti yayındıra bilərik. Bununla belə, müşahidə və təcrübə ilə bölüşməməyi, alternativ yolların göstərilməməsini məqbul hesab etmirik. Hazırda tədris proqramlarının (standartlarının) icrasında üzləşdiyimiz dil problemini də yeni elmi-metodiki yanaşmaya və elmi diskursa ehtiyacı olan aktual məsələ hesab edirik.

Bu gün qloballaşma və inteqrasiya meyilləri, mədəniyyətlərarası ünsiyyət, eləcə də müştərək tədris proqramlarının icrası təhsil müəssisələrində bilinqval və polilinqval mühit formalaşdırır. Məktəbəqədər və umumi təhsil səviyyələrində bu mühitin formalaşmasını şərtləndirən cəhətlər və tələblər barədə çox danışılıb. Yəni ana dili ilə yanaşı, məktəbəqədər və ümumtəhsil müəssisələrində rus və ingilis dillərində təhsil alan uşaq və gənclərin sayı kifayət qədərdir. Fikrimizcə, cari tədris ilindən başlayaraq, təlim digər dillərdə aparılan sinif və məktəblərdə bir-iki fənnin dövlət dilində tədrisi və bu fənnə ayrılan saatların artırılması məktəblərimizdə bilinqval və polilinqval mühitin formalaşması üçün yaxşı başlanğıc kimi qiymətləndirilə bilər. Bu vəziyyət həm də tədris əcnəbi dillərdə aparılan siniflərdə texniki, təbiət və ictimai fənlər üzrə müəllim çatışmazlığı probleminin həllinə xidmət edər. Lakin tədris saatları artırılmış və növbəti illərdə artırılmasına ümid bəslədiyimiz dövlət dilinin tədris standartlarının (fənn kurikulumu) yenidən işlənilməsi məqbuldur. Dövlət dili üzrə tədris proqramında (fənn kurikulumunda) dildanışıq və yazı vərdişlərinin aşılanması, şifahı və yazılı nitqin inkişafı, təhliletmə bacarığının və məntiqi təfəkkürün formalaşdırılması üçün tələblərin əhatə olunması, dövlət dilinin tədrisi üzrə fənnin Azərbaycan tarixi, coğrafiyası, folklor və ədəbiyyatı, musiqisi və sair fənn və kurslarla inteqrasiyası imkanlarının genişləndirilməsi faydalı olardı. Qeyd etməliyik ki, ümumi təhsildə bilinqval və polilinqval təlim modellərinin tətbiqi təhsil standartlarının və tədris resurslarının yenidən yaradılmasına, ümumiyyətlə, məktəb proqramlarının məzmununun dəyişdirilməsinə, yeni təlim reallıqlarının formalaşmasına gətirib çıxaracaq. Aydındır ki, böyüməkdə olan nəsli multikultural dəyərlər və tolerantlıq ruhunda tərbiyə edən Azərbaycan məktəbi ölkə Konstitusiyasının, “Təhsil haqqında Qanun”un təsbit etdiyi hüquqları təmin etməlidir. Bütün hallarda dövlət dilinin, milli-mədəni dəyərlərin aşılanması, milli şüur və təfəkkürün formalaşdırılması, göstərilən milli reallıqların bəşəri dəyərlər sisteminə inteqrasiya edilməsi təlimin məzmununda yer almalıdır. Fikrimizcə, bu zaman Milli Kvalifikasiyalar Çərçivəsində (MKÇ) səviyyə deskriptorlarına (təsvirə) yanaşma dəyişməlidir. Yəni, 1-ci səviyyədə “Bilik və anlama”, “Bacarıqlar” bölmələrində dövlət dili barədə “ilkin biliklər” yox, “ilkin biliklər, danışıq bacarıqları və vərdişləri”, “bir xarici dildə sadə ünsiyyət bacarıqlarını nümayiş etdirir” ifadəsinin əvvəlinə “dövlət dilində sərbəst şifahi və yazılı nitq vərdişləri” ifadəsi əlavə edilməli, 2-ci və 3-cü səviyyələrdə də dövlət dili amili vurğulanmalıdır. Bu, ölkə vətəndaşının hansı dildə təhsil almasından asılı olmayaraq, ömürboyu təhsil səviyyələrində qırmızı xətlə keçməlidir. Elmi məzmunun, anlayışların və nəticələrin dövlət dilinə gətirilməsi baxımından hətta 8-ci səviyyədə də bu, vacibdir. Yəni 8-ci səviyyədə “Bacarıqlar” bölməsində “peşəkar müzakirələrdə şifahi və yazılı şəkildə iştirak edə... bilir” ifadəsinə “dövlət dilində və ən azı bir xarici dildə” sözlərini əlavə etmək məqsədəuyğundur.

Hazırda dil amili MKÇ üzrə müəyyən olunmuş 6-cı səviyyədə, yəni ali təhsilin bakalavriat səviyyəsində müəyyən məsələlərə aydınlıq gətirməyi tələb edir.

*Məsələnin məğzi.* Azərbaycanda ali məktəblərə tələbə qəbulu üç dildə aparılır: Azərbaycan, rus və ingilis. Aşağıda sadalayacağımız ixtisaslara isə tələbə qəbulu Azərbaycan və rus bölmələri üzrə həyata keçirilir. Bəs MKÇ-nın 6-cı səviyyə üçün müəyyən etdiyi “məzun peşəsi üzrə peşəkar fəaliyyəti dövlət dilində və ən azı bir xarici dildə” icra etməyi bacarmalıdır tələbi necə gözlənilir? Və ya necə gözlənilməlidir?

*Problemin qoyuluşu.* Ali təhsilin bakalavriat səviyyəsində ixtisasların təsnifatında “Təhsil” və “Humanitar və sosial elmlər” bölmələrinə daxil olan “Xarici dil müəllimliyi (dillər üzrə)”, “Dil və ədəbiyyat (dillər üzrə)”, “Tərcümə (dillər üzrə)”, “Regionşünaslıq (ölkələr üzrə)” ixtisaslara qəbul olunmuş və bu tədris proqramlarını bitirmiş məzunların ixtisas üzrə bilik və anlama, bacarıq, müstəqillik və məsuliyyət keyfiyyətləri necə formalaşır və tələb edilən kompetensiyalar necə əldə olunur?

MKÇ, ixtisaslar üzrə tədris proqramlarındakı (standartlarındakı) Peşə təlim nəticələri (PTN) və Fənlər üzrə təlim nəticələri (FTN) tədris dili ilə ixtisas dili arasındakı mütənasibliyi təmin edib, sonda mənimsənilən dil, ədəbiyyat, ölkə üzrə mütəxəssis yetişdirməyə və bu mütəxəssisin hər iki dildə müvafiq kompetensiyalara malik olmasına və ali təhsilin sonrakı səviyyələrində də müvəffəqiyyət qazanmağa imkan verirmi?

*Problemin həllinin aktuallığı.* Göstərilən ixtisaslara tələbə qəbulu əsasən dövlət dilində həyata keçirilir. Bu ixtisasları seçən bəzi abituriyentlərin xarici dil bilikləri (ingilis dili və olduqca az sayda məktəbləri bitirən məzunların alman və fransız dili istisna olunmaqla) əksər hallarda aşağı səviyyədə olur və onlar ixtisas dilini, tərcümə edəcəkləri dili, mütəxəssisi olacaqları ölkəni dil bazası olmadan mənimsəməyə başlayırlar. MKÇ-nın 6-ci səviyyə üçün müəyyən etdiyi “fəaliyyət və ya təhsil sahəsi ilə bağlı məsələləri Azərbaycan və ən azı bir xarici dildə şifahi və yazılı şəkildə izah edir, həmçinin peşəkar müzakirələrdə iştirak edə bilir” tələbdən çıxış etsək, “ən azı bir xarici dildə” ifadəsinin məhz ixtisas dili və ya ölkəsinin dilinə aid olduğu anlaşılır. Deməli, bilinqval təlim mühitini formalaşdıran, peşə və fənlər üzrə təlim nəticələrini motivləşdirən məzmun axtarışları üçün müvafiq təlim-təcrübə modelinin yaradılması məsələsi aktuallıq kəsb edir.

Bilinqval təlim-təcrübə modelini, tədris qrafikini və mühitini formalaşdıran amillər və kompetensiyalar niyə yaranmır? Burada yuxarıda sadalanan “Xarici dil müəllimliyi (dillər üzrə)”, “Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)”, “Filologiya (dil və ədəbiyyat göstərilməklə)”, “Tərcümə (dillər üzrə)”, “Regionşünaslıq (ölkələr üzrə)” ixtisasları nəzərdə tutulur.

Ümumi təhsil proqramlarının icrası dövlətin və bu sahəyə məsul icra orqanının nəzarətindədir. Yəni kadr seçimi (MİQ imtahanları vasitəsilə), tədris resurslarının yaradılması (şagirdlər üçün dərsliklər və müəllimlər üçün metodiki vəsaitlər), ümumi orta təhsildə çalışan pedaqoji, tədrisə yardımçı və inzibati heyətin əməkhaqlarının vahid tariflər üzrə dövlət büdcəsindən ödənilməsi, məktəblərin təchizatı, şagird qəbulu və yerləşdirilməsi və sair məsələlərlə bağlı elektron idarəetmə sistemlərinin tətbiqi və bu kimi digər təşkili məsələləri vurğulamaq istəyirik.

Ali təhsildə tam başqa mənzərə mövcuddur. Düzdür, biz hamımız ali təhsil müəssisələrinin müstəqilliyi ideyasının tərəfdarı kimi ATM-lərimizin tam başqa müstəvilərdə, beynəlxalq reytinqlərdə, həm də cəmiyyətimizdə fərqli qiyafədə görünməsi arzusu ilə çalışırıq. Əminik ki, qəbulunu gözlədiyimiz “Ali təhsil haqqında Qanun” arzularımızın gerçəkləşməsinə xidmət edəcək. Bu yazını bugünkü təhsil sistemimizdə olduqca aktual gördüyümüz təhsil proqramlarının dil problemi ilə bağlı müzakirənin açılması məqsədilə redaksiyaya təqdim etmişik.

Ali təhsil işçiləri yaxşı anlayırlar ki, dil problemi həm də tədris proqramlarının hər beş ildən bir dəyişməsi ilə sıx bağlıdır. Həftəlik auditoriya saatlarının getdikcə azalması və təhsilalanlar üçün daha çox auditoriyadankənar fəaliyyətin planlaşdırılması standartlar üzrə xarici dilin, xüsusən də ixtisas dili kimi sıfırdan mənimsədilməsinə problem yaradır.

Tədris və ixtisas dilləri arasında optimal mütənasibliyə və münasibətlərə nail olmaq, real bilinqval tədris mühiti formalaşdırmaq üçün müzakirə olunan ixtisaslarda tədris dili və ixtisas dili anlayışlarının xarakteristikasını müəyyən etməliyik. Bu, təkcə tədris proqramları və real tədris planları ilə təqdim olunan anlayışlar kimi deyil, həm də ikidilli şəxsi formalaşdıra bilən cəhətlər kompleksi kimi başa düşülməlidir. Aydındır ki, azərbaycanlı tələbə ingilis, rus, çex, polyak, yunan, yapon və sair dilləri mənimsəyərkən o, buna məktəbdə təhsil aldığı dil vasitəsilə nail olur. Amma xarici dillərin öyrədilməsində fərqli metodika və yanaşmalar da mövcuddur. Xüsusilə də əcnəbilərin yeni dili mənimsəməsi (təbii ki, daha çox ixtisas üzrə materialların öyrədilməsi üçün) zamanı vasitəçi dildən imtina olunması və ya passiv istifadə yanaşması geniş tətbiq olunur. Bu yanaşma daha çox texniki, təbiət və tibb sahələri üzrə ali təhsil almaq niyyətində olan əcnəbilər üçün tədrisdə tətbiq edilir. Bu zaman tədris (dil bölməsi) və ixtisas dilləri anlayışları aktuallıq kəsb eləmir, onlar üst-üstə düşür. Tərəfimizdən müzakirə edilən filoloji və humanitar ixtisaslarda isə dil amili daha geniş anlamda qəbul edilir. Burada dil vahidləri, paradiqmalar, mətnlər, dil və mədəniyyət kontekstləri, kulturoloji, sosioloji, iqtisadi və sair amillər də ortaya çıxır. Fikrimizcə, tərəfimizdən qeyd edilən ixtisaslar üzrə tələbə qəbulu sifarişində “tədris dili” yerində təkcə tələbənin orta məktəbi bitirdiyi dil yox, həm də ixtisasa yiyələnəcəyi dilin qeyd edilməsi təhsil proqramının icrası reallıqlarına daha uyğundur. Məsələn, orta məktəbi dövlət dilində bitirən abituriyentlər üçün “Xarici dil müəllimliyi (alman dili üzrə)”, “Tərcümə (çex dili)”, “Regionşünaslıq (Rusiya)” ixtisaslarında (ixtisaslaşmalarında) tədris dilinin Azərbaycan və müvafiq olaraq, alman, çex, rus dilləri göstərilməsi məqsədəuyğundur. Bu, ixtisas fənləri üzrə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi meyarlarına və MKÇ ilə müəyyən olunan kompetensiyalara cavab verir.

Bu məqsədlə mütəxəssis hazırlığı proqramlarında “tədris dili” və “ixtisas dili” anlayışlarını və tədris proqramlarının icrasında onların yerini müəyyən edən cəhətləri ayırd etsək, tədris prosesində istifadə olunan dillərin interqasiyası məsələsinə də aydınlıq gətirərik. Vurğulamalıyıq ki, tədris planları və tədris qrafikləri fakültələrin nəzdindəki ixtisas kafedralarının, universitetin elmi-metodiki və ya tədris-metodiki şuralarının iştirakı ilə elə tərtib olunmalıdır ki, ilk üç tədris semestrində “tədris dili” və “ixtisas dili” arasında paritet gözlənilsin. Eyni zamanda üç tədris semestri ərzində xarici dilin mənimsənilməsi üzrə bütün standartlar əhatə olunsun, yəni eşidib-anlama, oxu, şifahi və yazılı nitq vərdişləri, qrammatik minimum mənimsənilsin. Bu zaman ixtisas kafedralarının əsas vəzifəsi fənlərin təlim nəticələrinə əməl edilməklə adaptasiya olunmuş tədris materiallarının və mətnlərin hazırlanmasıdır. Sonrakı dörd tədris semestri ixtisas üzrə nəzəri fənlərin, praktik vərdişlərin və bacarıqların mənimsənilməsinə istiqamətləndirilir, ixtisas dili amili ön plana keçir. Yəni şifahi və yazılı nitqin ixtisasın məzmununa və gələcək peşəkar fəaliyyətə uyğun inkişafı və zənginləşdirilməsi üçün ixtisas dilində ölkənin ədəbiyyatı, mədəniyyəti, tarixi, coğrafiyası, siyasi-iqtisadi xüsusiyyətləri, flora və faunası və s. barədə məlumatlar toplamaq, onları təhlil və təqdim etmək bacarığı formalaşdırılır. Bəzi universitetlərimizdə konkret dillər və ölkələr üzrə “Kulturologiya”, “Linqvokulturologiya”, “Ölkəşünaslıq” və bu kimi adlar altında yaradılan tədris resurslarının bu məqsədlə hazırlandığını qeyd etməliyik. Təlim ixtisas dilində aparılmaqla yanaşı, MKÇ-nin bakalavrlar üçün müəyyən etdiyi “fəaliyyət və ya təhsil sahəsi ilə bağlı məsələləri Azərbaycan və ən azı bir xarici dildə şifahi və yazılı şəkildə izah edir, həmçinin peşəkar müzakirələrdə iştirak edə bilir” tələbi fənlərin təlim nəticələrinin qiymətləndirilməsi üzrə meyarlarda əks olunur. Təbii ki, ATM-lər öz ixtisaslarının spesifikasından çıxış edərək, Elmi Şuranın qərarı ilə “Kredit sistemi ilə tələbələrin biliyinin qiymətləndirilməsi barədə əsasnamə”dəki meyarlara müvafiq əlavələr edə bilərlər. Fikrimizcə, 2008-ci ildə qəbul olunmuş bu əsasnaməyə onsuz da dəyişikliklər etməyin zamanı yetişdiyindən yuxarıdakı qeyd də orada əxz oluna bilər.

Yeni tədris standartları təsdiq olunduqdan sonra istehsalat və pedaqoji təcrübənin təşkili ilə bağlı müzakirələr bitmədiyindən tədris proqramı üzrə son – səkkizinci semestrə təsadüf edən ixtisas üzrə təcrübənin məhz MKÇ-nin 6-cı səviyyə üzrə deskriptorlara, əsasən də tərəfimizdən vurğulanan tələbə uyğun keçirilməsini də vacib hesab edirik.

Yuxarıda söylənilən fikirləri ümumiləşdirərək, sonda bəzi məqamlar üzərində xüsusi olaraq dayanmağa ehtiyac duyuruq: 1)müzakirə edilən ixtisaslar üzrə mütəxəssis hazırlığı proqramı və prosesində dil problemini həll etmədən, optimal bilinqval təlim mühiti yaratmadan peşə və fənn təlim nəticələrinə, MKÇ-nin ali təhsilin səviyyələri üzrə müəyyən edilən kompetensiyalara nail olmaq mümkünsüz görünür; 2)optimal bilinqval təlim mühitinin yaradılması üçün sadalanan ixtisaslarda tədris aparan elmi-pedaqoji heyətdə yüksək hazırlıqlı, yəni elmi dərəcə və adlara malik müəllimlər üstünlük təşkil etməli və bu ixtisaslarda tələb edilən tədris resursları təminatını həyata keçirməyə qadir olmalıdır; 3)tədris proqramlarının icrası ikili diplom layihələri, mübadilə proqramları, ixtisas dili və ölkəsində yay məktəbi, stajirovka, istehsalat təcrübəsi, dil səviyyələri üzrə kurslar və sertifikatlaşma kimi tədbirlərlə müşayiət olunmalıdır; 4) günümüzün tələbinə uyğun olaraq, universitetlərimiz elm və təhsil istiqamətləri ilə məhdudlaşmayaraq, özlərinin üçüncü missiyası barədə ciddi düşünməli, ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən ali məktəblərimiz və onların filialları geniş tədris-elm-istehsalat, elm-təhsil-xidmətlər-inklüziv yanaşma-sosial və ictimai münasibətlər və sair tərəfləri əhatə edən, özünə yerli əmək bazarı iştirakçılarını cəlb və inteqrasiya edə bilən mərkəzlərə çevrilməlidirlər; 5) göstərilən məsələ və məqamların müzakirədə olan “Ali təhsil haqqında Qanun” layihəsində bu və ya digər formada əksini tapmasını arzulayırıq.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

| Kafedra | Vəzifə | Yer |
|---|---|---|
| Sosial-mədəni fəaliyyət kafedrası | Dosent | 1 |
| | Baş müəllim 0,5 ştat vahidi | 2 |
| Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası | Müəllim | 1 |
| Musiqi tarixi və nəzəriyyəsi kafedrası | Baş müəllim | 1 |
| | Baş müəllim 0,5 ştat vahidi | 1 |
| Muğam sənəti kafedrası | Dosent 0,5 ştat vahidi | 1 |
| Estrada sənəti kafedrası | Baş müəllim | 1 |
| Xalq çalğı alətləri ifaçılığı kafedrası | Baş müəllim | 1 |
| Musiqili teatr aktyoru kafedrası | Dosent | 1 |
| | Baş müəllim | 1 |
| Səhnə danışığı kafedrası | Müəllim | 1 |
| Dram teatrı və kino aktyoru kafedrası | Dosent 0,5 ştat vahidi | 1 |
| Ədəbiyyat və dillər kafedrası | Müəllim 0,5 ştat vahidi | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqədə iştirak etmək üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:**
Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:**
599-00-54 (daxili-100)

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

ştatda boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Kafedra müdiri**

Riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrası - 1 yer
İnformatika kafedrası - 1 yer
Diferensial tənliklər və optimallaşdırma kafedrası - 1 yer
Riyaziyyat və onun tədrisi metodikası kafedrası - 1 yer
Fizika və onun tədrisi metodikası kafedrası - 1 yer
Bərk cisim və yarımkeçiricilər kafedrası - 1 yer
Elektrotexnika və energetika kafedrası - 1 yer
Kimya və onun tədrisi metodikası kafedrası - 1 yer
Neft kimyası və kimya mühəndisliyi kafedrası - 1 yer
Ekologiya kafedrası - 1 yer
Mülki müdafiə, tibbi və fiziki hazırlıq kafedrası - 1 yer
Biologiya və onun tədrisi metodikası kafedrası - 1 yer
İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası - 1 yer
İnformasiya və kompüter texnikası kafedrası - 1 yer
Proseslərin avtomatlaşdırılması kafedrası - 1 yer
Maliyyə və mühasibat uçotu kafedrası - 1 yer
Dünya iqtisadiyyatı və marketinq kafedrası - 1 yer
Biznesin təşkili və menecment kafedrası - 1 yer
Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrası - 1 yer
Pedaqogika və psixologiya kafedrası - 1 yer
Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası - 1 yer
Fəlsəfə, sosiologiya və politologiya kafedrası - 1 yer
Coğrafiya və onun tədrisi metodikası kafedrası - 1 yer

**Kafedralar üzrə professor**

Coğrafiya və onun tədrisi metodikası kafedrası - 1 yer

**Kafedralar üzrə 0,5 şt. professor**

İnformatika kafedrası - 1 yer
Xarici dillər kafedrası - 1 yer

**Kafedralar üzrə dosent**

Riyaziyyat və onun tədrisi metodikası kafedrası - 1 yer
Maliyyə və mühasibat uçotu kafedrası - 1 yer
Fizika və onun tədrisi metodikası kafedrası - 1 yer
Kimya və onun tədrisi metodikası kafedrası - 1 yer
Neft kimyası və kimya mühəndisliyi kafedrası - 1 yer
Biologiya və onun tədrisi metodikası kafedrası - 2 yer
Fəlsəfə, sosiologiya və politologiya kafedrası - 1 yer
Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrası - 2 yer

**Kafedralar üzrə 0,5 şt. dosent**

Elektromexanika kafedrası - 1 yer
Pedaqoqika və psixologiya kafedrası - 1 yer

**Kafedralar üzrə baş müəllim**

Proseslərin avtomatlaşdırılması kafedrası - 1 yer
Elektrotexnika və energetika kafedrası - 1 yer
Biologiya və onun tədrisi metodikası kafedrası - 1 yer
Neft kimyası və kimya mühəndisliyi kafedrası - 1 yer
Tarix və onun tədrisi metodikası kafedrası - 1 yer
Xarici dillər kafedrası - 1 yer

**Kafedralar üzrə 0,5 şt. baş müəllim**

İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası - 1 yer
Elektromexanika kafedrası - 1 yer

**Kafedralar üzrə müəllim**

Tarix və onun tədrisi metodikası kafedrası - 1 yer
Azərbaycan dili və onun tədrisi metodikası kafedrası - 1 yer

**Kafedralar üzrə assistent**

Biologiya və onun tədrisi metodikası kafedrası - 1 yer

**Qeyd:** Sənədlər elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan:** AZ-5008 Sumqayıt, 43-cü məhəllə, SDU otaq 233.
**Telefon:** (018) 642-15-06, əlavə: 1-16.

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün**

1. Fizika-riyaziyyat
2. Tarix-filologiya

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Azərbaycan dili və ədəbiyyatı
2. Dünya iqtisadiyyatı və menecment
3. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
4. Ümumi riyaziyyat
5. İnformatika
6. Coğrafiya
7. İngilis dili və metodika
8. Elektronika və informasiya texnologiyaları
9. Rus və Şərq dilləri
10. Təsviri incəsənət
11. Musiqi təlimi
12. Xalq çalğı alətləri
13. Orkestr alətləri və dirijorluq

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

1. Azərbaycan tarixi kafedrası - müəllim 1 yer, - professor 1 yer
2. Azərbaycan dili və ədəbiyyatı kafedrası - baş müəllim 2 yer, - dosent 1 yer
3. Baytarlıq təbabəti kafedrası - dosent 1 yer (0,5 ştat)
4. Biologiya kafedrası - müəllim 1 yer, - dosent 1 yer
5. Beynəlxalq münasibətlər kafedrası - müəllim 1 yer (0,5 ştat)
6. Bələdiyyə və turizmin idarə olunması kafedrası - dosent 1 yer (0,5 ştat)
7. Ümumi riyaziyyat kafedrası - müəllim 2 yer (0,5 ştat), - baş müəllim 1 yer, - dosent 1 yer (0,5 ştat)
8. Ümumi və nəzəri fizika kafedrası - dosent 2 yer
9. Ümumi təbabət və kliniki fənlər kafedrası - müəllim 1 yer (0,5 ştat), - professor 1 yer
10. Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrası - müəllim 1 yer (0,5 ştat), - dosent 1 yer
11. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası - baş müəllim 1 yer (0,5 ştat), - dosent 1 yer (0,5 ştat)
12. Dünya iqtisadiyyatı və menecment kafedrası - müəllim 1 yer (0,5 ştat), - dosent 1 yer (0,5 ştat), - dosent 1 yer
13. İqtisadiyyat kafedrası - müəllim 2 yer (0,5 ştat), - dosent 1 yer
14. İnformatika kafedrası - dosent 1 yer
15. İngilis dili və metodika kafedrası - müəllim 1 yer (0,5 ştat)
16. İngilis dili və tərcümə kafedrası - dosent 1 yer
17. Mühasibat uçotu və maliyyə kafedrası - müəllim 1 yer, - baş müəllim 1 yer, - dosent 1 yer
18. Musiqi təlimi kafedrası - baş müəllim 1 yer
19. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası - baş müəllim 1 yer
20. Orkestr alətləri və dirijorluq kafedrası - müəllim 1 yer
21. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası - müəllim 1 yer
22. Kimya kafedrası - dosent 2 yer (0,5 ştat)
23. Elektronika və informasiya texnologiyaları kafedrası - müəllim 1 yer (0,5 ştat), - müəllim 1 yer
24. Elektroenergetika mühəndisliyi kafedrası - dosent 1 yer (0,5 ştat)
25. Fəlsəfə və sosial iş kafedrası - dosent 1 yer
26. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası - dosent 1 yer
27. Roman-German dilləri kafedrası - baş müəllim 1 yer
28. Rus və Şərq dilləri kafedrası - müəllim 2 yer (0,5 ştat)
29. Stomatologiya kafedrası - müəllim 3 yer (0,5 ştat), - müəllim 1 yer
30. Teatr və mədəniyyətşünaslıq kafedrası - baş müəllim 1 yer
31. Təsviri incəsənət kafedrası - müəllim 1 yer (0,5 ştat), - baş müəllim 1 yer
32. Təməl tibb fənləri kafedrası - müəllim 1 yer (0,5 ştat), - dosent 1 yer (0,5 ştat)
33. Əczaçılıq və biokimya kafedrası - müəllim 2 yer, - baş müəllim 1 yer (0,5 ştat)
34. Hüquq fənləri kafedrası - müəllim 1 yer (0,5 ştat), - müəllim 1 yer
35. Xalq çalğı alətləri kafedrası - müəllim 1 yer (0,5 ştat)

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

**Ünvan:** Naxçıvan şəhəri, universitet şəhərciyi
**Telefon:** (036) 545-23-66/10-01

**REKTORLUQ**

# Uşaqlara sevgi ilə



## Onlar həm müalicə alır, həm də öyrənirlər

Bu yaxınlarda K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu Uşaq Bərpa Mərkəzinə nəvəmin səhhəti ilə əlaqədar müraciət etməli oldum. Haqqında eşitdiyim mərkəzi bir daha gözlərimlə gördükdən sonra qərara gəldim ki, bu səhiyyə ocağının xoşməramlı fəaliyyətinə bir jurnalist kimi işıq tutum.

Uşaq Bərpa Mərkəzi 1988-ci ildən fəaliyyət göstərir. Mərkəz uşaqların tam və ətraflı müayinəsini, yüksək dərəcəli ixtisaslaşdırılmış çoxprofilli bərpa müalicəsini həyata keçirir. 35 illik reabilitasiya təcrübəsinə malik olan mərkəz xəstə uşaqların fiziki və psixoloji reabilitasiyanı təşkil edir, dispanser müşahidə üsulunun həcmini genişləndirir və təkmilləşdirir, erkən uşaqlıq dövründə xas olan əlilliyin zamanında profilaktikası və müdaxiləsini təşkil edir, bununla da əlilliyin qarşısının erkən alınması üçün tədbirlər görülür.

Artıq Uşaq Bərpa Mərkəzi öz inkişafının yeni mərhələsinə keçib. 2021-ci ilin aprel ayından İcbari Tibbi Sığortaya keçəndən mərkəzdə xəstə sayının artması və valideynlərin razılığı Azərbaycanda bu növ sığortanın vacibliyini bir daha təsdiq edir. Mərkəz Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin qərarı ilə K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun Publik Hüquqi Şəxsin strukturuna daxil edilib. Bu, mərkəzin daha da inkişafına kömək edir. Mərkəzin mütəxəssisləri ETPİ-nin təşkil etdiyi elmi konfranslarda, təlim və vebinarlarda aktiv iştirak edir, müasir müalicə metodlarını öyrənir və öz praktik işlərində tətbiqinə çalışırlar.

Qeyd etməliyik ki, Uşaq Bərpa Mərkəzi heç də standart müalicə mərkəzlərinə bənzəmir. Belə ki, dəhlizlərdə, otaqlarda müxtəlif növ təbii çiçəklər, güllər insanın gözünü oxşayır. Maraqlı, inkişafetdirici oyuncaqlar təlim və məşğələlər zamanı uşaqların ixtiyarına verilir. Eyni zamanda otaqlarda uşaqların çəkdikləri rəsmlər marağa səbəb olur.

Mərkəzin rəhbəri Cəmilə Talıbova müalicə ocağı haqqında məlumat verərək dedi: “Xüsusi qayğıya ehtiyacı olan uşaq mərkəzimizə gəlməzdən əvvəl poliklinikada, xəstəxanada tibbi xidmət alır. Mərkəzə gəldikdə isə onlar burada ev, bağça şəraitinə bənzər mühitlə qarşılaşırlar. Artıq o, reabilitasiya mərkəzinə tibb müəssisəsi kimi yanaşmır. Bu da uşağın psixi və fiziki inkişafına müsbət təsir edir, reabilitasiyanın uğurla keçməsinə səbəb olur. Həm uşaqlara, həm də onların valideynlərinə mehribanlıq və qayğıkeşlik göstərərək öz insani və həkimlik borcumuzu yerinə yetiririk”.

Mərkəzdə bərpa müalicəsi, fizioterapiya, klinik laboratoriya şöbələri, idman zalları, masaj otaqları, aktiv terapiya, loqoped və psixoloq kabinetləri fəaliyyət göstərir. Bərpa müalicə şöbəsinin müdiri Lalə xanımın qəbul zamanı uşaqlara göstərdiyi qayğı, onları diqqətlə müayinə etməsi, onun tək həkim kimi deyil, bir ana kimi yanaşması diqqətimdən yayınmadı.

Loqoped otağında aparılan məşğələ də marağımı çəkdi. Loqoped Sevinc xanımın uşağı müayinə etməsi çox fərqli idi. O, nitqdə olan qüsuru yaradan səbəbləri də aşkar etməyə çalışırdı. Uşağın eşitməsini, diqqətini, qavramasını, səslərin tələffüzü zamanı yaranan maneələri diqqətlə yoxlayır və qüsurları vaxtında aradan qaldırmaq üçün onu aidiyyəti üzrə mütəxəssislərə yönəldirdi. Mərkəzin həkim-fizioterapevti E.Ələsgərova, MBT həkimi T.Hüseynova, həkim-kardioloq L.Şükürova da uşaqları ətraflı müayinə və düzgün diaqnoz təyin edirdilər. Nəvəmi masaj edən S.Məmmədova və başqaları çox mehriban və öz işlərində peşəkardırlar. Müalicəvi bədən tərbiyəsi üzrə təcrübəli mütəxəssislər hər bir uşağa fərdi yanaşırdılar.

Bəli, mərkəzdən ayrılanda belə bir qənaətə gəldim ki, doğrudan da uşaqlarımızın sağlamlığı savadlı və peşəkar həkimlərin əllərindədir.

**Şakir CƏFƏROV,**
*filologiya üzrə fəlsəfə doktoru*


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2497 **Sifariş** 731

**Məsul növbətçi:** Ş.Cəfərov


# Etibarsız sayılır

**Xırdalan şəhər** 3 nömrəli məktəb-liseyi 2020-ci ildə bitirmiş Rzazadə Emin Ramil oğluna verilmiş E-346113 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 21.08.2020-ci ildə bitirmiş Rəhimov Sabir Elşad oğluna verilmiş E-265294 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 128 nömrəli tam orta məktəbi 16.06.2007-ci ildə bitirmiş Həbibov Həbib Əziz oğluna verilmiş B-371939 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 8 nömrəli tam orta məktəbi 18.06.2004-cü ildə bitirmiş Rəcəbov Seymur Ədalət oğluna verilmiş A-011560 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə S.Məmmədov adına tam orta məktəbi 2003-cü ildə bitirmiş Hüseynova Nigar Müzəffər qızına verilmiş A-718065 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə S.Məmmədov adına tam orta məktəbi 2005-ci ildə bitirmiş Nəbiyeva (Hüseynova) Pəri Müzəffər qızına verilmiş A-178284 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Əliyev Nihad Tağı oğluna verilmiş BB-I-018281 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Həsənsu kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş İbrahimova Nigar Sədəddin qızına verilmiş A-265235 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2008-ci ildə Kosayev Nəsimi Vəli oğluna verilmiş B-109770 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəki Tibb Məktəbi** tərəfindən 2009-cu ildə Cabbarova Sevinc Rəsul qızına verilmiş BB-II-085991 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 35 nömrəli tam orta məktəbi 18.06.2005-ci ildə bitirmiş Əliyev Rövşən Əli oğluna verilmiş B-161238 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Həmidov Vahid Şahin oğluna verilmiş C-074409 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 10 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Xələfova (İbrahimova) Nərmin Elşən qızına verilmiş B-499623 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 05.07.1991-ci ildə bitirmiş İsmayılov Rüfət Rafail oğluna verilmiş A-016070 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbi 27.06.2012-ci ildə bitirmiş Mehdizadə Seyidhəsən Mirzaman oğluna verilmiş A-116125 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam Musiqi Kolleci** tərəfindən 2015-ci ildə Allahyarova Aynur Xanlar qızına verilmiş AA-777 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** H.Hüseynov adına 4 nömrəli humanitar fənlər təmayüllü məktəb-liseyin IX sinfini 2001-ci ildə bitirmiş Abdullayeva Raminə Arif qızına verilmiş B-476578 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1974-cü ildə Əliyev Şakir Təvəkül oğluna verilmiş Ю-282790 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2020-ci ildə Həsənov Zaur Şahin oğluna verilmiş C-063197 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 25 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Bayramlı (Həsənova) Sevinc Nəsib qızına verilmiş 523056 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Marsan kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Poladcan (Məmmədova) Bəsti Yaşar qızına verilmiş A-532282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Muğanlı kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Novruzov Elməddin Oktay oğluna verilmiş A-001866 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məhərrəmova Şahinə Əmrağa qızına verilmiş A-424638 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İbadova Kəmalə Nəsib qızına verilmiş A-721416 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Əhmədova Nahidə Vəzir qızına verilmiş B-526362 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Nəzirli Mehralı Əhməd oğluna verilmiş A-538979 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Zeynalov Əli Elmar oğluna verilmiş A-364511 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 38 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Bağırova (Məmmədova) Turanə Xəqani qızına verilmiş A-283663 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2015-ci ildə Avdıyeva Şəfa Sədrəddin qızına verilmiş A-062464 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Kuzun qışlaq kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Ömərov Dəyanət Bəxtiyar oğluna verilmiş A-665449 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** H.Həsənov adına Qasımlı kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Rzayeva Təranə Əbülfəz qızına verilmiş B-325352 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 78 nömrəli köçkün tam orta məktəbi 2019-cu ildə bitirmiş Həsənzadə Nəsib İlyas oğluna verilmiş E-220479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbi 24.06.1995-ci ildə bitirmiş Həsənova Aynurə Namiq qızına verilmiş A-096373 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Mustafayev Əli Nəcəf oğluna verilmiş BN-034727 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2018-ci ildə Qaracayev Elçin Elşan oğluna verilmiş CN-022135 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Babayev Nurəli Orucəli oğluna verilmiş A-041383 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Zərdabi qəsəbə tam orta məktəbi 17.06.2006-cı ildə bitirmiş Əliyev Tural Vahid oğluna verilmiş B-311501 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2015-ci ildə Quluzadə İslam Manur oğluna verilmiş AT-001961 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əliyev Nicat Elşən oğluna verilmiş A-327901 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əhmədli Tomris Etibar qızına verilmiş B-256428 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir 7 nömrəli kənd orta texniki peşə məktəbi** tərəfindən 1976-cı ildə Əsgərov Akif Əmirxan oğluna verilmiş 827904 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 2002-ci ildə Kərəmov Elşən Harun oğluna verilmiş 18k-499 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Avcı Yusif Ramazan oğluna verilmiş C-106122 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər tam orta məktəbi 2002-ci ildə bitirmiş Rzayev Elman Məzahir oğluna verilmiş A-633166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Universiteti** tərəfindən 1985-ci ildə Cəfərov Lütviyar Məmməd oğluna verilmiş HB-971775 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 282 nömrəli tam orta məktəbi 18.06.2007-ci ildə bitirmiş Heydərov Elçin Elmar oğluna verilmiş BN-378560 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Çeşməbasar kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş Abdullayeva Nərminə İsgəndər qızına verilmiş B-795042 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2021-ci ildə Rahımı Morteza Rahim oğluna verilmiş AT-007962 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2021-ci ildə Abbasova Vəfa Tofiq qızına verilmiş C-092400 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2021-ci ildə Cəfərov Əliabbas Yaşar oğluna verilmiş C-115008 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

# Partlayış təhlükəsindən necə qorunmalı?



## Bakı məktəbliləri partlayıcı sursatların təhlükəsinə dair maarifləndirilib

⇦ Əvvəli səh.1

### Mina ilə qarşılaşdıqda necə rəftar etməli?

Əmrin icrası ilə bağlı Suraxanı rayonu Əmircan qəsəbəsində yerləşən Abil Səfərov adına 114 nömrəli tam orta məktəbin VI“A” sinfində “Həyat bilgisi” fənni üzrə “açıq dərs” keçirilib.

Dərsə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin baş məsləhətçi Rövşən Ağayev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova və məsləhətçisi Şəhanə Ələkbərova, Suraxanı rayonu üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış idarəsinin çağırış şöbəsinin rəisi Namiq Orucov və onun müavini Elsevər Nağıyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq üzrə metodisti Mürsəl Qurbanov iştirak ediblər.

Məktəbin direktoru Ceyran Novruzova “açıq dərs”in mahiyyətini məktəblilərin nəzərinə çatdırıb. Fənn müəllimi Kəmalə Orucova “Təhlükəsizliyimizin təmin olunması” mövzusunda dərs nümayiş etdirib.

Dərsdə müəllim şagirdlərə minanın təhlükəli tərəfləri və minalı ərazilərdə necə diqqətli olmaları, mina ilə qarşılaşdıqda necə rəftar etməli olduqları barədə praktik şəkildə məlumat verib. Məqsəd kütləvi təhlükəsizlik qaydalarını yaymaq, əhalini, o cümlədən uşaqları mina təhlükəsizliyindən xəbərdar etmək, onlara mina ilə bağlı bədbəxt hadisələrin qarşısının alınması üçün zəruri bilik və vərdişləri aşılamaq idi. Tədbirdə şagirdlərə mina təhlükəsizliyi haqqında videoçarxlar nümayiş etdirilib.

Gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, Birinci Qarabağ müharibəsinin qazisi, müharibə veteranı, ehtiyatda olan polkovnik Bürhan Səmədov minalanmış ərazi nə deməkdir, minaların partlayış zamanı törətdiyi fəsadlar, partlamamış hərbi sursat barəsində ətraflı məlumat verib, döyüş sursatlarını şagirdlərə əyani vəsait kimi nümayiş edib.

Məktəbin tibb bacısı Simruzə Şəfəqqətova yaraların üzərinə aseptik sarğıların və şinaların qoyulma metodunu nümayiş etdirib. İkinci Qarabağ müharibəsi qazisi, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Elmar Hüseynov vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində şagirdlərlə söhbət aparıb, onların suallarını cavablandırıb.

Suraxanı Rayon Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi, mayor Toğrul Vəliyev qeyd edib ki, hələ də işğaldan azad olunmuş ərazilərdə böyük həcmdə mina və partlamamış hərbi sursatlar qalmaqdadır və hazırda aidiyyəti dövlət strukturları, o cümlədən FHN-nin struktur qurumları bu təhlükənin tam aradan qaldırılması istiqamətində əlaqəli şəkildə fəaliyyətlərini davam etdirir.

### Minalanma zamanı ilk tibbi yardım

Suraxanı rayonu Bülbülə qəsəbəsində yerləşən şəhid N.Həmidov adına 208 nömrəli tam orta məktəbin 10-cu sinfində Gənclərin çağırışaqədərki hərbi hazırlıq fənni üzrə təlim dərsi keçirilib.

Məktəbin hərbi rəhbəri Elməddin Həsənov mina təhlükəsizliyinə dair ətraflı məlumat verib. Minaların növləri, onların təhlükəsi haqqında videoçarxlar, əyani vəsaitlər nümayiş etdirilib. Məktəbin biologiya müəllimi Gülbacı Salmanlı qəza zamanı göstərilən ilk tibbi yardım: qanaxmalar, onların növləri, sınıqlar haqqında məlumat verib və praktik olaraq şagirdlərdən təyin olunmuş sanitarlar tərəfindən əyani şəkildə minalanma zamanı ilk tibbi yardım göstərilib. İkinci Qarabağ müharibəsi qaziləri - baş leytenant Kamil Musəvi, gizir Elməddin Fəxrəddinov minanın törətdiyi təhlükədən danışıblar və ehtiyatlı olmağı tövsiyə ediblər.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı aparatının nümayəndəsi mina qurbanlarının statistikası, mina hadisələrinin fəsadları haqqında məlumat verib.

Dərsdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin



nümayəndələri, məktəbin direktoru Məlahət Əsədova, Suraxanı rayonu üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış idarəsinin Həqiqi Hərbi Xidmətə Çağırış üzrə şöbəsinin işçisi leytenant Şahin Əmirli və müfəttiş Anar Babayev iştirak edib.

Şəhid N.Həmidovun bacısı Səkinə Həmidova, İkinci Qarabağ müharibəsinin şəhidi, məktəbin məzunu Mehdi Fərzullazadənin anası Elvira Fərzullazadə, rayon ərazisində yerləşən məktəblərin hərbi rəhbərləri ümumi təhsil müəssisələrində təşkil olunan valideyn iclaslarında valideynlərə “Metodiki tövsiyələr”dən irəli gələn vəzifələrin izah edilməsinin vacibliyini bildiriblər.

### Minaların növləri ilə əyani tanışlıq

Bakı şəhəri M.Rüstəmov adına 32 nömrəli tam orta məktəbin 7“A” sinfində “Həyat bilgisi” fənni üzrə “açıq dərs” keçirilib.

Fənn müəllimi Vəfa Alıyeva “Mina təhlükəsizliyinə dair maarifləndirmə” mövzusunda dərsdə şagirdlərə minaların təhlükəli və insan həyatına vurduğu fiziki, psixoloji, iqtisadi tərəflərinə, o cümlədən mina ilə qarşılaşdıqda necə rəftar etməli olduqları barədə praktik şəkildə məlumat verilib.

Tədbirdə şagirdlərə mina təhlükəsizliyi haqqında səhnələşdirilmiş oyun, eyni zamanda mina təhlükəsizliyinə qarşı videoçarx nümayiş olunub. Şagirdlər qruplara bölünərək işğaldan azad olunmuş rayonların tarixi haqqında məlumat veriblər.

Gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, Birinci Qarabağ müharibəsi veteranı, ehtiyatda olan kapitan Nadir Vəliyev minaların növləri ilə şagirdləri əyani şəkildə tanış edib, minalanmış ərazi nə deməkdir, minaların partlayış zamanı törətdiyi fəsadlar, partlamamış hərbi sursat barəsində ətraflı məlumat verib, döyüş sursatlarını şagirdlərə əyani vəsait kimi nümayiş etdirib.

Məktəbin həkimi Fəridə Əliyeva yaraların üzərinə aseptik sarğıların və şinaların qoyulma metodunu nümayiş etdirib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin aparıcı məsləhətçisi Aydın Rəhimov vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində şagirdlərlə söhbət aparıb, onların suallarını cavablandırıb. Dərsdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq metodisti Mürsəl Qurbanov, məktəbin direktoru Sevda Abdullayeva, Azərbaycan Qarabağ müharibəsi Əlilləri Veteranları Şəhid Ailələri İctimai Birliyinin Nizami rayon şöbəsinin sədri Məhi Mehdiyev, qazilər Abbas Əliyev, Anar Məmmədli və digər qonaqlar iştirak edib.

### Şagirdlərin tədqiqatında

Xətai rayonu 191 nömrəli tam orta məktəbin 10“A” sinfinin şagirdləri “Mina təhlükəsizliyi”nə dair maarifləndirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin ifa olunması ilə başlanıb, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Məktəbin çağırışaqədərki hazırlıq rəhbəri, ehtiyatda olan polkovnik-leytenant Müstəcəb Niyarov şagirdlərə minaya düşən dinc insanların statistik məlumatını çatdırıb, partlamamış hərbi sursat barəsində videoçarx nümayiş etdirərək məlumat verib.

“Mina və PHS-la qarşılaşdıqda davranış qaydaları” tədqiqat sualı əsasında şagirdlər 3 qrupa ayrılaraq təhqiqat aparıblar. Qrup iştirakçıları mina və PHS-dan zərərçəkmişə praktiki ilk tibbi yardımın göstərilməsi barədə səhnəcik təqdim edib və komandalar arasında qarşılıqlı sual-cavab keçirilib.

Sonra məktəbin 7“J” sinfinin iştirakı ilə “Həyat bilgisi” fənni üzrə “Mina partlayışları zamanı ilk tibbi yardım qaydaları” mövzusunda “açıq dərs” keçirilib. Dərsdə uşaqlar mina partlayışı zamanı baş vermiş arterial qanaxmanı və qapalı sınıqlar zamanı göstəriləcək ilkin tibbi yardımı praktiki olaraq nümayiş etdirib.

BŞTİ-nin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq üzrə metodisti Mürsəl Qurbanov, Vətən müharibəsi iştirakçıları, ehtiyatda olan zabit Hüseyn Abbasov və qazi, baş leytenant Hüseyn Hacıyev minaların və PHS-ın böyük təhlükə yaratdığını qeyd edib, onlarla qarşılaşdıqda davranış qaydaları haqqında tövsiyələr verib, şagirdlərin suallarını cavablandırıblar.

Dərsdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları iştirak ediblər.

### Mina nədir?

Təhsil müəssisələrinin müəllim, şagird heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi məqsədilə Bakı şəhəri 74 nömrəli tam orta məktəbin 10 “A” sinfində “Mina nədir” mövzusunda təlim keçirilib.

Gənclərin çağırışaqədərki hazırlıq fənni üzrə rəhbəri, Birinci Qarabağ müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant Vüqar Məhərrəmov minalanmış ərazi nə deməkdir, minaların partlayış zamanı törətdiyi fəsadlar barəsində danışıb, döyüş sursatlarını şagirdlərə əyani vəsait kimi nümayiş etdirib.

Məktəbin həkimi Vüsalə Məmmədova yaraların üzərinə aseptik sarğıların və şinaların qoyulma metodunu nümayiş etdirib. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin aparıcı məsləhətçisi Aydın Rəhimov vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində şagirdlərlə söhbət aparıb, onların suallarını cavablandırıb.

Təlimdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun məsləhətçisi Şahanə Bağırova, BŞTİ-nin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq metodisti Mürsəl Qurbanov, Qarabağ müharibəsinin qaziləri və məktəbin müəllimləri iştirak edib.

### Qaynar xətlərin xilasetmə əhəmiyyəti

Yasamal rayonu 31 nömrəli tam orta məktəbin 10-cu siniflərində də “Çağrışaqədərki hazırlıq” fənnini tədris edən müəllim Samir Daşdəmirov nümunəvi dərs keçirib.

Dərsdə Fövqəladə Hallar Nazirliyi xüsusi riskli xilas etmə xidmətinin pirotexnik və istehkam hazırlığı şöbəsinin rəisi kapitan Süleyman Heydərov şagirdlərə mina və partlamamış hərbi sursatlar, mina təhlükəsinə dair təhlükəsizlik qaydaları, minalı əraziləri fərqləndirən əlamətlər, “112” və “102” qaynar xətlərinin xilasetmədə əhəmiyyətindən söhbət aparıb, məktəblilərin suallarını cavablandırıb.

Qarabağ müharibəsi iştirakçıları Valeh Alışanov, Şöhrət Əliyev, Çingiz Bağırov və Kamil Baxşəliyev şagirdlərə keçdiyi döyüş yollarından söhbət açıb, dərsin mövzusu ilə bağlı məsləhətlər veriblər.

Nümunəvi dərsin sonunda Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin baş məsləhətçisi Rövşən Ağayev məktəbin rəhbərliyinə ANAMA tərəfindən hazırlanmış təlimat kitabçası və partlayıcı sursatların təhlükəsinə dair təbliğat materialları olan maarifləndirici və xəbərdaredici bukletlər, plakatlar təqdim edib.

Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova və məsləhətçisi Şəhanə Bağırova, Fövqəladə Hallar Nazirliyi əhalinin mariflәndirilməsi işinin təşkili şöbəsinin rəisi baş leytenant Rzalı Samir, məktəbin müəllimləri iştirak edib.

### İnteraktiv, nəzəri və əyani

Xəzər rayonu Buzovna qəsəbəsində yerləşən 322 nömrəli tam orta məktəbdə də “Mina təhlükəsizliyi”nə dair XI“B” sinfində maarifləndirmə tədbiri və VII“H” sinfində “Həyat bilgisi” fənni üzrə “açıq dərs” keçirilib.

Məktəbin direktor əvəzi, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq fənni üzrə metodisti Rövşən Qasımov partlamamış hərbi sursatlar və mina təhlükəsizliyini interaktiv, nəzəri və əyani baxımından şagirdlərə izah edib. Şagirdlərin hazırladıqları əl və rəsm işlərini nümayiş etdirib.

“Həyat bilgisi” fənni üzrə müəllim Aynurə Həsənova partlamamış hərbi sursatlar və mina təhlükəsizliyi baxımından ilk tibbi yardım qaydalarını interaktiv, əyani və nəzəri baxımdan şagirdlərin nəzərinə çatdırıb. Dərsin sonunda şagirdlər tərəfindən mina təhlükəsizliyinə qarşı səhnəcik göstərilib.

Xəzər rayonu Vətən Müharibəsi Veteranlar Şurasının sədri Rəyasət Tağıyev çıxış edərək belə tədbirlərin şagird və müəllimlər üçün əhəmiyyətini vurğulayıb.

Təhsil Nazirliyinin əməkdaşı Aydın Rəhimov, BŞTİ-nin əməkdaşı Şəhanə Bağırova, Xəzər rayonu Azad Həmkarlar İttifaqının sədri Həzərxan Əbilov çıxış edərək tədbir haqqında öz fikirlərini bildirib.

Dərsdə Xəzər rayonu Səfərbərlik Hərbi Xidmətə Çağırış üzrə Dövlət idarəsinin Çağırış Şöbəsinin rəisi Ceyhun Məmmədov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin çağırışaqədərki hazırlıq fənni üzrə metodisti Mürsəl Qurbanov, Xəzər rayonu 340 nömrəli uşaq bağçasının müdiri Gülnar Qəmbərova, Xəzər rayonu Gənclər və İdman idarəsinin müdiri Vüqar Əliyev və bir qrup Vətən müharibəsi qazisi iştirak edib.

### Təhlükəsizlik qaydalarına riayət etməklə

Bakı şəhəri 258 nömrəli tam orta məktəbdə 10-11-ci sinif şagirdlərinin iştirakı ilə “Mina təhlükəsizliyi” mövzusunda məktəbin hərbi rəhbəri, ehtiyatda olan polkovnik-leytenant Mahir Kazımov maarifləndirmə tədbiri keçirib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin ifası və Vətən torpaqlarının azad olunmasında canlarından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Məktəbin direktoru Sədaqət Hüseynova bildirib ki, müvafiq tədbirlər planına uyğun bir sıra işlər həyata keçirilib.

Sonra məktəbin hərbi rəhbəri videoçarxlardan istifadə edərək şagirdlərə mühəndis maneələrinin növləri, onların xüsusiyyətləri, partlayan maneələrin təyinatı, taktiki - texniki xüsusiyyətləri və quruluşu haqqında ətraflı məlumat verib.

Fövqəladə Hallar Nazirliyinin xüsusi riskli xilasetmə xidmətinin pirotexnik və istehkam hazırlığı şöbəsinin rəisi kapitan Süleyman Heydərov tərəfindən şagirdlərə FHN-də Vətən müharibəsindən sonra yeni yaradılan mina təmizləmə alayının zəruriliyindən və fəaliyyətindən söz açıb. Şagirdlərə minanın təhlükəli tərəfləri və minalı ərazilərdə necə diqqətli olmaları, mina ilə qarşılaşdıqda necə rəftar etməli olduqları barədə praktik şəkildə məlumat verib. Mövzuya uyğun təqdim olunan təlim material bazanın zənginliyi şagirdlərin diqqətini xüsusi ilə cəlb edib.

Vətən müharibəsinin iştirakçısı, qazı polkovnik-leytenant Anar Həsənov şagirdlərə döyüşlər zamanı minanın törətdiyi təhlükədən, həmçinin partlamayan maneələrin xüsusiyyətlərindən danışıb və hamılıqla təhlükəsizlik qaydalarına əməl etmələrini tövsiyə edib.

Tədbirdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin baş məsləhətçisi Rövşən Ağayev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin inkişaf layihələri sektorunun müdiri Günay Qurbanova, BŞTİ-nin məsləhətçiləri Şəhanə Bağırova və Sevinc Əzimova, FHN-nin ictimaiyyətlə əlaqə idarəsi işinin təşkili şöbəsinin rəisi, baş leytenant Rzalı Samir, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət xidmətinin Nərimanov rayon idarəsinin zabiti Rəşad Bağırlı iştirak edib.

### Mina və partlamamış hərbi sursatları tanımaq bacarıqları

Xəzər rayonu, Binə qəsəbəsində yerləşən 326 nömrəli tam orta məktəbin 10 “B” sinfində partlayış təhlükəsinə qarşı maarifləndirmə məqsədi ilə məktəbin hərbi rəhbəri, ehtiyatda olan mayor, Vətən müharibəsi iştirakçısı Şahin Hüseynov nümunəvi dərs keçirib.

Dərsdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin aparıcı məsləhətçisi Aydın Rəhimov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun məsləhətçisi Şəhanə Bağırova, Xəzər rayonu Azad Həmkarlar İttifaqının idarəsinin sədri Həzərxan Əbilov və BŞTİ-nin Təlimə Dəstək Mərkəzinin metodisti Mürsəl Qurbanov iştirak edib.

Dərsdə müəllim şagirdlərə mina və partlamamış hərbi sursatların forması, rəngi, ölçüsü, nədən hazırlanmasından danışıb, iştirakçılarda onları tanımaq bacarıqları formalaşdırılıb, mina və partlamamış hərbi sursatların ola biləcəyi yerlər, rəsmi və qeyri rəsmi mina işarələri barədə bəhs edilib, məktəblilərə minalarla oynamamaq, çubuqla onlara toxunmamaq, mina və partlamamış hərbi sursatların partlayaraq onları öldürə və ya şikəst edə bilməsinin izahı verilib.

Məktəbin tibb bacısı Tərlan Abbasova yaraların üzərinə aseptik sarğıların və şinaların qoyulma metodunu nümayiş etdirib.

### Sosial psixoloji təsirlər

Nəsimi rayonu 247 nömrəli məktəbdə “Mina təhlükəsi” mövzusunda valideynlərlə maarifləndirmə iclası keçirilib.

İclası məktəbin direktoru Sitara Abbasova açaraq bildirdi ki, valideynlərə, həmçinin müəllimlərə “Metodiki tövsiyələr”dən irəli gələn vəzifələri izah edilib.

Akademik Zərifə Əliyeva adına liseyin hərbi rəhbəri Qılman Eyvazov iştirakçılara partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmənin ümumi əsasları, məktəb hazırlığında Partlayıcı Sursatların Təhlükəsinə dair Maarifləndirmə, mina təhlükəsinə dair təhlükəsizlik qaydaları, təhlükəli ərazinin əlamətləri barədə məlumat verərək müxtəlif növ mina və sursatın vizual tanınması üçün maketlər nümayiş etdirib.

Fövqəladə Hallar Nazirliyi xüsusi riskli xilas etmə xidmətinin pirotexnik və istehkam hazırlığı şöbəsinin rəisi kapitan Süleyman Heydərov videoçarxlardan istifadə edərək valideynlərə və müəllimlərə mina təhlükəsizliyi və davranış qaydalarından, mina və partlamamış hərbi sursatların tanınmasından, sosial psixoloji təsirlərdən, “112” və “102” qaynar xətlərinin xilasetmədə əhəmiyyətindən söhbət aparıb, suallara ətraflı cavab verib.

Müəllim və valideynlərə ANAMA tərəfindən hazırlanmış təhlükəsizlik qaydalarına dair təlimat kitabçalar və maarifləndirici bukletlər, plakatlar təqdim olunub.

***

Azərbaycan Respublikası təhsil nazirinin “Təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələr”in təsdiq edilməsi barədə” 2021-ci il 20 avqust tarixli əmrin icrası ilə bağlı Səbail rayonu 329, Sabunçu rayonu 169, Binəqədi rayonu 102, Qaradağ rayonu 228, Pirallahı rayonu 168 nömrəli tam orta məktəblərində, Nizami rayonu 220 nömrəli məktəb-liseydə və Bakı şəhərinin digər təhsil müəssisələrində də maarifləndirmə tədbirləri təşkil olunub.